

**Fərxi MÜSLÜM**
**Şair-publisist**

# “Ötən günlər”ə səyahət

***Bu günlərdə Bakı Bələdiyyə Teatrının hazırladığı növbəti tamaşa teatr ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandı. Özbək ədəbiyyatının klassiki Abdulla Qədirinin oxucular tərəfindən sevilən “Ötən günlər” romanının motivləri əsasında yazıçı-dramaturq Kənan Hacının qələm aldığı eyni adlı pyesin quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovdur.***

***Özbəkistanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri cənab Bahrom Bahodiroviç Aşrafxanovun təklifi əsasında hazırlanan ‘Ötən günlər” tamaşası Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr olunub.***

Tamaşa haqqında fikir bildirməzdən öncə qeyd edim ki, bu səhnə əsəri Kənan Hacının dramaturgiyada növbəti uğurudur. Bundan əvvəl onun “Kölgə”, “Xəlbir və ney” pyesləri ölkə teatrlarında müvəffəqiyyətlə oynanılıb. “Qırmızı şəhərin qurbanı” teletamaşasına Əməkdar artist, rejissor Bəhruz Vaqifoğlu quruluş verib, tamaşa Dövlət televiziyasında nümayiş olunub. “Ötən günlər” isə istisnasız olaraq deyə bilərəm ki, yazıçının yaradıcılığında xüsusi yer tutan bir əsərdir və doğrudan da müəllif məşhur romanı ustalıqla səhnələşdirə bilib; mövzunun ümumi kompozisiyasına, ideya istiqamətinə və janr prinsiplərinə dəqiqliklə riayət edərək ölçü hissini həssaslıqla gözləyə bilib.



Tamaşanın yaradıcı heyəti Abdulla Qədirinin ideyalarına sadiq qalmaqla orijinal bir səhnə əsəri ərsəyə gətiriblər. Burada rejissorun da əməyi xüsusi qeyd edilməlidir. Mərahim müəllim onlarla tarixi dram əsərinə quruluş verib. “Atabəylər”, “Torpağa sancılan qılınc”, “Mənsiz dünya”, “Şeyx Xiyabani”, “Xan qızı”, “Qətibə İnanc”, “Qarabağnamə” və digər monumental tamaşalar bu gün də tamaşaçıların yaddaşındadır. Xalq yazıçısı İlyas Əfəndiyevin “Qarabağnamə” əsəri otuz ildən çoxdur ki, Dövlət Akademik Milli Dram Teatrında nümayiş olunur. “Ötən günlər” tamaşası da görkəmli rejissorumuzun növbəti uğurlarından biridir. Məlumdur ki, Mərahim Fərzəlibəyov özünəməxsus yaradıcılıq manerası olan bir rejissordur, düşünürəm ki, o, teatrımızın aparıcı fiqurlarındandır, gənc rejissor nəsli onun naliyyətlərindən çox şey öyrənə bilər.



“Ötən günlər”də uğurlu aktyor ansamblı var. Dramaturji konflikt son dərəcə ustalıqla qurulub, iki gəncin sevgisi və ictimai motiv incə xətlərlə birləşir. Hadisələr XIX əsrin ortalarında Özbəkistanda baş verir. Xanlıqlar arasında savaş gedir, çar imperiyası isə bundan istifadə edərək münaqişəni bir qədər də dərinləşdirmək, özbək xalqını parçalamaq niyyəti güdür. Bu əsnada Daşkənddən Mərgilana ticarət məqsədilə gəlmiş gənc Atabəy burada Gümüşə aşiq olur. Çoxarvadlılığın hökm sürdüyü bu qaranlıq cəmiyyətdə iki aşiq azad sevgini buxovlayan köhnə adət-ənənələrə qarşı çıxırlar. Daşkənddə isə Əziz bəy xalqa zülm verir, qardaş qanı axıdılır. Tamaşada Divanə obrazı xüsusilə diqqəti çəkir, o, kamerton kimi hadisələri nizamlayır. Yeri gəlmişkən, gənc aktyor Toğrul Rza Divanə obrazı-



nı son dərəcə məharətlə canlandırır. Divanənin daxili üsyanı, əlində tutduğu balqabaqla söhbətləri ictimai kəsər daşıyır. O, feodal quruluşa qarşıdır, zülmə, ədalətsizliyə qarşıdır. Həmişə ona şərab pulu verən Həmidin verdiyi puldan da imtina edir. Çünki Həmid xainlik edir, Atabəyi və Mirzəkərimi çar məmuruna satır. Həmidin xəyanəti nəticəsində az qala, Atabəyi edam edəcəkdilər. Divanə insanın içindəki şəri lənətləyir, o, həmişə xeyirin, xeyirxahlığın tərəfindədir. O, tamaşaçıda rəğbət hissi doğurur.

***Əməkdar artist Aydın Əliyev Çar polkovniki obrazını inandırıcı oynayır. Biz səhnədə sözün əsl mənasında qəddar, hiyləgər bir imperiya məmurunu görürük. Aktyor obrazın xarakterini açmaq üçün uğurlu ştrixlər seçir və nəticədə situasiyanı bir qədər də gərginləşdirir. Ümumiyyətlə, Aydın Əliyev geniş diapazona malik aktyordur və bu obrazla da tamaşaçıların yaddaşında dərin iz buraxır.***

**_Tamaşanın yaradıcı heyəti Abdulla Qədirinin ideyalarına sadiq qalmaqla orijinal bir səhnə əsəri ərsəyə gətiriblər. Burada rejissorun da əməyi xüsusi qeyd edilməlidir. Mərahim müəllim onlarla tarixi dram əsərinə quruluş verib. “Atabəylər”, “Torpağa sancılan qılınc”, “Mənsiz dünya”, “Şeyx Xiyabani”, “Xan qızı”, “Qətibə İnanc”, “Qarabağnamə” və digər monumental tamaşalar bu gün də tamaşaçıların yaddaşındadır. Xalq yazıçısı İlyas Əfəndiyevin “Qarabağnamə” əsəri otuz ildən çoxdur ki, Dövlət Akademik Milli Dram Teatrında nümayiş olunur. “Ötən günlər” tamaşası da görkəmli rejissorumuzun növbəti uğurlarından biridir..._**

Atabəy və Gümüş. Tural Əhməd kinoda və səhnədə kifayət qədər uğurlu rollar oynayıb. Tamaşaçılar tərəfindən sevilən aktyorlardandır. Onun yaratdığı Atabəy üsyankar olduğu qədər də dəyanətli, öz sevgisinə sadiq bir gəncdir. Anası Özbək xanım onun Mərgilanda Gümüşlə evlənməsini qəbul etmir, onu Daşkənddə Zeynəblə evləndirirlər. Amma Atabəy Gümüşə sadiq qalır. Atabəyin daxili dramatizmi Tural Əhmədin ifasında son dərəcə dinamikdir, o, sanki tamaşaçını da fəal olmağa çağırır. Obrazı canlandırmaq üçün seçdiyi ifadə vasitələri uğurludur. Atabəyin Divanə ilə söhbətləri tamaşaçıda ümid hissləri oyadır. Biz bu söhbətlərdə Atabəyin zəngin daxili aləminin şahidi oluruq.

Gümüş obrazını gənc aktrisa Sabirə Rüstəmli canlandırır. Onun hiss və həyəcanları tamaşaçıya da sirayət edir. Atabəyi saf məhəbbətlə sevən biçarə qızın çarəsiz çırpınışları ürəkləri riqqətə gətirir. Cadugər Cənnətin gətirdiyi yalançı məktub onun qəlbini didib-parçalayır. Həmidin qurduğu hiylə torunda çabalayan Gümüşün fəryadı, göz yaşları seyriçini də mütəəssir edir. Gümüş Sabirə Rüstəmlinin ifasında ürəklərə daxil ola bilir. Aktrisa olduqca füsunkar oyun nümayiş etdirir. İstər danışığında, istər hərəkətlərində və istərsə də daxili həyəcanlarını ayrı-ayrı ştrixlərlə ifadə edərkən təbiiliyi qoruyub saxlayır. Bu obraz uzun müddət tamaşaçıların yaddaşından silinməyəcək. Mən onu belə adlandırardım – Azərbaycan səhnəsinin Gümüşü.

Cadigər Cənnət obrazını yaradan Əməkdar artist Firəngiz Babayeva rolunun kiçikliyinə rəğmən uğurlu tapıntıları ilə yadda qalır. Obraz üzərində uğurlu işi Cənnətin tamaşadakı təsir gücünü artırır. Bu da aktrisanın nailiyyətidir.

Əməkdar artist Hüsniyyə Mürvətovanın yaratdığı Özbək xanım obrazı konflikti dərinləşdirən presonajdır. O, övladının xoşbəxtliyi üçün çalışır, Atabəyin valideynlərindən xəbərsiz evlənməsi onu qəzəbləndirir. Özünün seçdiyi qızı evinə gəlin gətirir. Əlbəttə, bu, o dövr özbək mühiti üçün təbii bir hadisədir. Lakin Özbək xanım hadisələrin faciəvi sonluqla bitəcəyini ağlına belə gətirə bilmir. Zeynəb Gümüşü zəhərlədikdən sonra Özbək xanımın peşmançılığı başlayır. Aktrisa bu peşmançılığı o qədər sənətkarlıqla ifadə edir ki, bir anlıq ona bəraət qazandırmaq istəyirsən. Bu dəyişmə prosesi aktrisanın uğurlu tapıntılarındandır.

Rəşad Kəsəmənli də uğurlu rolları ilə tamaşaçılar tərəfindən sevilən aktyorlardandır. Onun Xalq yazıçısı Elçinin “Şekspir” tamaşasında yaratdığı Stalin obrazı fərqli yanaşma ilə seçilir və aktyorun geniş səhnə imkanlarına malik olduğunu göstərir. “Ötən günlər”dəki Hacı Yusif obrazı isə tamamilə fərqli ampluaya malikdir. Aktyorun roldan rola inkişafı göz önündədir. Rəşadın ifasında Hacı Yusif fərqli səciyyə daşıyır. O, Daşkənddə nüfuz sahibidir, Əziz bəyin zülmündən bezmiş kütlə onun ədalətinə sığınır. O, oğlunun istəklərinə qarşı çıxmasa da feodal quruluşun qanunları qarşısında duruş gətirə bilmir. Aktyor Hacı Yusifin mənəvi iztirablarını görümlü etməyi bacarır.

Əməkdar artist Əfqan Soltanov Mirzəkərim rolunun öhdəsindən uğurla gəlir. O, qəddar feodal deyil, rəhmli, ədalətli, müdrik insandır. Qızının istəyinə uyğun olaraq onun Atabəylə evlənməsinə razılıq verir. Aktyor obraza uyğun uğurlu ifadə vasitələri tapır. Eləcə də Aftab rolunun ifaçısı, Əməkdar artist Səmayə Sadıqova qızının xoşbəxtliyi üçün çalışan ananın həyəcanlarını təbii şəkildə tamaşaçıya çatdırır.

İsmayıl Atakişiyevin ifasında Həsənalı Lələ, Mehman Abdullanın ifasında isə Xudayar xan tamaşaya uğurlu yön verir, hadisələrin istiqamətini dəyişir.

***Zülfiyyə Məmmədova Zeynəbin sarsıntılarını canlı, təbii boyalarla çatdırır. Onun bədbəxtliyi, çarəsizliyi acı təəssüf hissi doğurur. Zənnimcə, Zeynəb aktisanın səhnədə ən uğurlu rollarından biridir.***

***Gənc aktyor Elməddin Zakirlinin ifasında Həmid obrazı canlı və dinamikdir. Həmidin hiyəgərliyi, xainliyi tamaşaçıda ona qarşı nifrət hissi oyadır. Gənc olmasına baxmayaraq Elməddin bu rolun öhdəsindən uğurla gəlir.***

***Rəşid Soltanovun ifasında çar məmuru səhnəyə xəyanət kölgəsi kimi daxil olur. O, çar imperiyasının gizli niyyətinin icraçısıdır.***

***Tamaşanın uğurunda aktyor ifalarıyla yanaşı səmərəli əməyini və uğurlu yaradıcılıq axtarışlarını xüsusi qeyd etmək lazımdır. Mərahim müəllim daim axtarışda olan rejissordur. Bu tamaşanın da ideya-bədii həllini uğurla tapmışdır.***

***‘Ötən günlər” tamaşası Bakı Bələdiyyə Teatrının uğurlu tamaşalarından biri kimi yaddaşlara yazıldı. Şübhəsiz, bu tamaşa Azərbaycan-Özbəkistan mədəni əlaqələrinin inkişafına öz töhfəsini verəcək.***